Ləğv etmə və ödəmə qaydası

Bundan sonra Zaman İQ(Içracı) və Sifarişci ayrı-ayrılıqda “Sifarişci”, birlikdə “Tərəflər” adlandırıla bilərlər.

Sifarişçi satılan mala (avadanlığ(qlara)a) və texniki xidmətə görə 100% məbləğdə əvvəlcədən ödənişi həyata keçirməyi öhdəsinə götürür. 100% məbləğdə əvvəlcədən ödənişi İcraçının hesablaşma hesabına və ya nağd yolu ilə ödənişi həyata keçirməyi öhdəsinə götürür. Satılan mal(ların) (avadanlıq) siyahısı və qiyməti qiymət təklifi barədə protokolda əksini tapır.
Ay ərzində ayrı-ayrı günlərdə qoşulan cihazların aylıq abunə haqqı həmin ayın günlərinə mütənasib qaydada hesablanacaqdır.
İcraçı avadanlığın texniki xidmətə görə cari ayın 5 (beş) iş günündən gec olmayaraq hər növbəti cari aya görə aylıq hesab-faktura Sifarişçiyə təqdim edilir (ayın ilk 5 (beş) gününə düşən dövlət bayramları, hüzn günləri nəzərdə tutulmadıqda).
Müqaviləyə əsasən, texniki xidmətin göstərilməsi, avadanlığın quraşdırılıb GPS izləmə sisteminə qoşulduğu cari ay üzrə hesablanır.
Müqavilə qiymətinin gələcəkdə dəyişilməsi tərəflərin qarşılıqlı razılığı əsasında həll edilir, qiymətlərin azalması və ya yüksəlməsinə dair təşəbbüskar tərəf qarşı tərəfə ən azı 1 (bir) ay qabaqcadan yazılı şəkildə müraciət etməlidir.
Müqavilənin ödəniş şərtlərində və qaydalarında nəzərdə tutulmuş müddətlərin Sifarişçi tərəfindən pozulması baş verərsə, İcraçı gecikdirilən hər gün üçün gecikdirilmiş ödəniş məbləğinin 1% miqdarında cərimə sanksiyaları (dəbbə pulu) hesablamaq hüququna malikdir.
Müqavilə üzrə ödənişlər 5 (beş) iş günü müddətindən artıq gecikdirilərsə GPS sistemə giriş Sifarişçiyə xəbərdarlıq olmadan məhdudlaşdırılacaqdır.
Müqavilə üzrə sistemə giriş dayandırıldığı təqdirdə xidmətlərin bərpası üçün yaranmış borc(lar) tam ödənildikdən sonra xidmət 12 (on iki) saat ərzində bərpa edilir.
Sifarişçi əmlaka avadanlığın quraşdırılması, bir əmlakdan digər əmlaka avadanlığın yenidən quraşdırılması və ya sökülməsi zərurəti yarandığı gün 1 (bir) iş günü qabaqcadan yazılı şəkildə İcraçı tərəfi xəbərdar etməyi öz öhdəsinə götürür.
Sifarişçi müqavilə şərtlərinə əsasən avadanlıq(ların)ın İcraçıdan təhvil alıb öz mülkiyyətinə qəbul etməli və əvəzində müqavilə şərtlərinə əsasən müəyyənləşdirilmiş pul məbləğini İcraçıya ödəməlidir.Sifarişçi mülkiyyətinə verilən avadanlıqlara və göstərilən texniki xidmətə görə ödənişi vaxtında və müəyyən olunan məbləğdə həyata keçirməlidir.

*Istifadəçinin kart məlumatları sayt tərəfdən saxlanılmır.*